# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

**№ 21 (909) 3 fevral - 4 fevral 2015-ci il**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU


# YENİ TİPLİ ORTA İXTİSAS KADRLARI DÖVRÜN TƏLƏBİDİR

## (mövzu əsasında IX yazı)

### *Uğurlu gələcəyin ən vacib şərti*

**Müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə müəyyən olunur. Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyil, başlıcası, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, hazırkı mərhələdə təhsil sisteminin ən zəruri vəzifəsidir. ABŞ, Yaponiya, Cənubi Koreya və digər inkişaf etmiş ölkələr malik olduqları maddi resurslardan daha çox insan kapitalından gəlir əldə edirlər. Bu ölkələrdə inkişafa təsir göstərən amillər içərisində təhsilin çəkisi əhəmiyyətli dərəcədə yüksəkdir. Bu mövzuda həmsöhbətimiz olan Mingəçevir Turizm Kollecinin direktoru, tanınmış pedaqoq və elm adamı professor Əyyub Əyyubov məsələnin mahiyyətini məhz bu cür xarakterizə edərək deyir: "Qloballaşmanın geniş vüsət aldığı informasiya cəmiyyətin də sosial-iqtisadi fəaliyyət sahələrində rəqabətin gücləndiyi, habelə təbii resursların tədricən tükəndiyi bir vaxtda təhsilin rolu daha da artmaqdadır. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri bütövlükdə "Təhsil əsri" elan etmişdir. Qətiyyətlə deyə bilərəm ki, yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu indiki qədər heç vaxt aktual olmayıb..."**

**"... Bu gün bizim gözəl ölkəmizdə - sürətlə inkişaf edən ölkədə hər bir vətəndaş üçün bütün imkanlar var. Çünki ölkəmizin dinamik inkişafı, yeni iş yerlərinin, yeni istehsalat sahələrinin açılması əlbəttə ki, hər kəs üçün imkan yaradır. O insanlar ki, böyük biliklərə malikdirlər, onlar həyatda öz layiqli yerini tuta bilərlər. Ona görə, yaxşı oxumaq həm ölkənin gələcəyinə verilən töhfədir, eyni zamanda, hər bir insan üçün önəmlidir. Yaxşı bilikli insan həyatda yaxşı iş də tapa, yaxşı dolanışıq da qura bilər, həm də öz ölkəsinə, xalqına daha da böyük xidmət göstərmiş olar".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***




### *Orta ixtisas təhsilinin özünəməxsusluğu*

Ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı məsələlərin həllində, formalaşan bazar münasibətləri şəraitində şəxsiyyətin və cəmiyyətin peşə-ixtisas təhsilinə olan tələbatının ödənilməsində orta ixtisas təhsilinin də özünəməxsus yeri var. Orta ixtisas təhsili ölkədə milli təhsil sisteminin nüfuzunun yüksəlməsində və cəmiyyətin intellektual potensialının formalaşmasında əhəmiyyətli rola malikdir. Bu təhsil kifayət qədər kütləvi ixtisas təhsili kimi vətəndaşların təhsil və mədəni səviyyəsinin yüksəldilməsinə xidmət edir. Respublikada yeni tipli orta ixtisas təhsili müəssisələrinin - kolleclərin fəaliyyətinin yüksəldilməsi bu mənada məsələyə yeni münasibəti formalaşdırır.

### *Mingəçevir Turizm Kolleci nüfuzlu təhsil müəssisəsidir*

Bu yazıda fəaliyyətindən, uğurlarından söhbət açdığımız Mingəçevir Turizm Kolleci də özünəməxsus ənənələri olan nümunəvi təhsil müəssisələrindən biridir. Mingəçevir Turizm Kollecinin qarşısında duran başlıca vəzifə iqtisadiyyatımızın inkişafı üçün ən perspektivli sahə olan turizm sənayesi üçün hərtərəfli bacarıqlı mütəxəssislərin hazırlanmasıdır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində kolleci qısa müddətdə xeyli uğurlar qazana bilmişdir. Artıq kollecin məzunları ölkə turizminin müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər. Kollecin fəaliyyətində ən uğurlu nailiyyətlər sırasında yüksək tədris intizamına nail olunması və beynəlxalq əməkdaşlıq sahəsində qazandığı uğurlardır.

Kollecdə "Turist, mehmanxana təsərrüfatının təşkili və idarə olunması", "Turizm və onun təşkili", "Turist, sanatoriya və kurort komplekslərində tibbi xidmətin təşkili işi", "Bələdçilik işi", "Muzey işi və abidələrin qorunması", "Reklam işi", "Mühasibat uçotu və audit", "Dekorativ tətbiqi incəsənət və xalq sənəti", "Nəqliyyatda daşınmaların təşkili", "Məktəbəqədər təlim və tərbiyə, "İbtidai sinif müəllimliyi", "Bədən tərbiyəsi və idman" ixtisasları üzrə mütəxəssis hazırlanır.

Hazırda kollecdə müxtəlif ixtisaslar üzrə 2300 nəfərdən çox tələbə təhsil alır. Tələbələrin tədrisi ilə 163 nəfərlik professor-müəllim heyəti məşğul olur.

Kollecdə maddi-texniki bazanın yaradılması və müasir səviyyəyə uyğunlaşdırılması əsas prioritet sahələrdən olmuşdur.

Dördmərtəbəli əsas tədris binası, 3 köməkçi tədris binaları, futbol, voleybol, basketbol, həndbol meydançası, qaçış zolaq sahələri, yeməkxana, mühafizə bloku və başqa qurğular kollecin maddi-texniki bazasının əsasını təşkil edir. Burda ümumi halda 18 kabinet, 3 laboratoriya, 3 kompüter mərkəzi, 43 ixtisaslaşdırılmış sinif otağı fəaliyyət göstərir. Kollecin kitabxanası 27396 nüsxə kitab fonduna malikdir. Kitabxana sistemli olaraq tələbləri yeni tipli tədris planlarının bütün fənlər üzrə, tədris prosesinin səmərəli təşkil edilməsi üçün zəruri sayılan əsas tədris və tədris-metodiki ədəbiyyatla təmin edir.

Kollecin məzmunlarına subbakalavr dərəcəsi verilir. Mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, Azərbaycan Respublikasının bütün regionlarında fəaliyyət göstərən turizm təşkilatları və idarələri, turist və sanatoriya-kurort kompleksləri, kempinqlər, mehmanxanalar, motellər və başqa müəssisələr subbakalavrın peşə fəaliyyətinin əsas sahələridir. Tədris prosesində müxtəlif dərs formatlarından istifadə olunur. Bununla yanaşı təhsilalanların yaradıcı fəaliyyətinə imkan verən tədqiqatçılıq bacarıqlarını stimullaşdıran dərslərə geniş yer ayrılır. Yeni pedaqoji texnologiyaları və müasir interaktiv təlim metodlarını əks etdirən qeyri-standart dərslərdən istifadə olunur.

Kollecin tələbləri dərsliklə yanaşı idman sahəsində də uğurlar qazanır. Tələbələrdən ibarət futbol komandası həvəskar liqada ölkə çempionudur. Fərdi idman növlərində çoxlu saylı tələbələr respublika və beynəlxalq səviyyəli turnirlərdə uğurla çıxış edirlər. Tələbələrin asudə vaxtlarının mənalı təşkil olunması məqsədilə kollecdə istedadlı tələbələrdən ibarət bədii özfəaliyyət kollektivi fəaliyyət göstərir.



### *Mingəçevir Turizm Kollecinin fəaliyyətində mühüm məqamlar...*

Avropa İttifaqının LMPH "Gürcüstan, Azərbaycan və Moldovada turizm sənayesinin inkişafı üçün mehmanxana işinin menecmenti üzrə bakalavr hazırlığı" 544191 Tempus 1-2013-1- PT JPCR" layihəsində iştirakçı hüququ qazanmışdır.


**(ardı gələn sayımızda)**



***Məzahir ƏHMƏDOĞLU***



**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ**